

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 11 iyun 2025-ci il №41 (2950) https://mod.gov.az Qiymәti 30 qәpik


*Təlim*

## Döyüş hazırlığı daim yüksəldilir



Yayın ilk ayı olsa da istidi, bürküdü. Bir yarpaq titrədəsi yel də əsmir. Yolların insan yükü azalıb. Biz tələsirik, elə bil zaman ötüşmür. Amansız zamanın sərhədlərini keçib hərbi hissəyə çatmaqdayıq. Bir azdan əl əldə isinəcək, söz sözə söykək olacaq. Baxışların səmimi kəlmələşməsi işığa dönəcək, bu işıq bizim də düşüncələrimizi təlimə yönəldəcək. Bizə də doğma olan təlimi ürəyimizin gözü ilə izləyəcəyik. Bu artilleriya qurğusu "Qrad" beş il əvvəl düşmənlə döyüşmüşdü, onun dəqiq atışları döyüşənlərimizi neçə-neçə qələbəyə çatdırmışdı. Bu artilleriya qurğusunun müharibədə duyduğu təmaslar dəyişib - döyüşənlər tərxis edilib, lakin doğmalıq eynidi. Azərbaycan əsgəri döyüş hazırlığını təlimlərlə, təlim-məşqlərlə təlim sahəsində bu istidə də, bürküdə də artırır, təkmilləşdirir.

Günəş buludların arxasına çəkilməkdədi. Təbiət bu təlimin iştirakçılarına - qəhrəmanların davamçılarına can yandırır elə bil. Yellərin yetirdiyi sərinlik də hiss olunmaqdadı.

Təlim-məşqin başlama ərəfəsində kapitan Teymur Süleymanov heyət üzvlərinə məsləhətlər verir. Düşmənin görünməyən hədəflərinin vurulması təkrarlanmalıdır. Tam artilleriya generalı Əlağa Şıxlinskini, "Şıxlinski üçbucağı"nı xatırlayıram. Atışlar bu artilleriya düsturuna əsaslanacaq. Məlum məsafəyə əsasən bucaq müəyyənləşdiriləcək.

Təlim öyrənilmişlərin təcrübi möhkəmləndirilməsidi. Hərbi xidmətdə hər təlim əsgərin döyüş hazırlığının yüksəldilməsi üçündür. Azərbaycan əsgəri İkinci Qarabağ müharibəsi ərəfəsində də ilkin hərbi bilikləri mənimsəmişdi, öyrəndiklərini müxtəlif təlimlərlə təkmilləşdirmişdi. Ordumuz əsgərlərin zamanında mənimsədiyi hərbi biliklərin, bu bilikləri sistemləşdirən, mükəmməlləşdirən təlimlərin işığında döyüşə-döyüşə Böyük Qələbəyə sarı irəliləmişdi, tarixi Zəfər qazanmışdı.

(Ardı 4-cü səhifədə)



## Naxçıvanda “Sarsılmaz Qardaşlıq-2025” və “Mustafa Kamal Atatürk-2025” təlimləri keçiriləcək

Azərbaycan ilə Türkiyə arasında imzalanmış hərbi əməkdaşlıq haqqında sazişə uyğun olaraq, Naxçıvanda "Sarsılmaz Qardaşlıq-2025" kompüter dəstəkli komanda-qərargah və "Mustafa Kamal Atatürk-2025" döyüş atışlı birgə taktiki təlimlərinə hazırlıq məqsədilə Azərbaycan-Türkiyə dövlət bayraqlarının dəyişmə mərasimi keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, Əlahiddə Ümumqoşun Ordunun (ƏÜO) Qərargahından hərəkətə başlayan bayraq taqımı Sədərək sərhəd keçid məntəqəsinə - Araz çayı üzərindəki "Ümid" körpüsünə doğru yürüşə başlayıb. Eyni zamanda, Türkiyənin bayraq taqımı da Ağrı vilayətinin Doğubəyazit rayonundan mərasimin keçiriləcəyi ünvana doğru yürüş edib.

"Ümid" körpüsündə Azərbaycan Respublikasının Dövlət Himni və Türkiyə Respublikasının İstiqlal Marşı ifa edildikdən sonra bayraqların dəyişmə mərasimi olub.

Sonra təlimə cəlb edilən bölmələr və hərbi texnika sərhəd-keçid məntəqəsindən Naxçıvana yola düşüblər.

Təlimin planına əsasən, tank, mexanikləşdirilmiş və komando bölmələri artilleriya, hava hücumundan müdafiə və aviasiya bölmələrinin dəstəyi ilə müxtəlif təlim-döyüş tapşırıqlarını yerinə yetirəcəklər.

## Ötən həftə 68 mina və 129 partlamamış hərbi sursat zərərsizləşdirilib




Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən iyunun 2-dən iyunun 9-dək icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumatı açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən həftə Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 52, tank əleyhinə 16 mina və 129 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Ötən həftə ərzində 889,2 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

## Sağlam əsgər - güclü ordu, güclü ordu - müstəqil və təhlükəsiz dövlət deməkdir



Zaman dəyişir, cəmiyyət inkişaf edir, dövlətlər güclənir. Bu dəyişikliklərin mərkəzində isə insan amili dayanır. İnsan sağlamlığı - istənilən inkişafın əsası, hər bir dövlətin prioritet məqsədidir. Məhz bu baxımdan son illərdə Azərbaycanda səhiyyə sisteminin müasirləşdirilməsi, əhalinin tibbi xidmətə əlçatanlığının artırılması, müasir standartlara cavab verən infrastrukturun yaradılması və kadr potensialının gücləndirilməsi sahəsində həyata keçirilən islahatlar böyük önəm kəsb edir.

(Ardı 6-cı səhifədə)

## Çar ordusunun “Xan” ləqəbli sərkərdə generalı



"Peterburq zadəganlarının say-seçmə üzvlərindən ibarət qvardiya süvarilərinə general Hüseyn xan Naxçıvanski komandanlıq edirdi". Bu sətirlər A.Soljenitsin "14 avqust" romanındandır. Rusların Zaqafqaziyanı (indiki Cənubi Qafqaz) işğalından sonra Naxçıvanski soyadını qəbul edən Kəngərlilər nəsli Azərbaycanın hərb tarixinə 5 general bəxş edib. Ehsan xan, Kəlbəli xan, İsmayıl xan, Hüseyn xan və Cəmşid xan Naxçıvanskilər bu nüfuzlu nəslin nümayəndələridir. Rusiya hərb tarixinə adı qızıl hərflərlə həkk olunmuş Hüseyn xan Naxçıvanski nəinki böyük bir nəslin, həm də Azərbaycan xalqının qəhrəman oğlu kimi hərb tariximizə şan-şöhrət qazandırıb. Bu araşdırma yazımda əsas yeri və önəmi çar ordusunun nüfuzlu sərkərdəsi, tam süvari generalı Hüseyn xan Naxçıvanskinin Birinci Dünya müharibəsində azərbaycanlı oğlu kimi döyüş cəbhələrində apardığı əməliyyatlarına və hərbi yaradıcılıq fəaliyyətinə vermişəm.

(Ardı 5-ci səhifədə)

## Hərbi pilotlarımızın peşəkarlığı artırılır



Cari ilin hazırlıq planına uyğun olaraq, hərbi pilotlar aviasiya vasitələri ilə təlim-məşq uçuşlarını icra ediblər.

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə şəxsi heyətə təhlükəsizlik qaydaları çatdırılıb. Hərbi pilotların sağlamlıq vəziyyəti yoxlanıldıqdan sonra müəyyən edilmiş marşrutlar üzrə praktiki uçuşlar yerinə yetirilib.

Hərbi pilotlar təyyarələrdə qalxma və enmə, eləcə də aşağı və orta hündürlüklərdə çətin pilotaj və döyüş manevrləri üzrə tapşırıqları icra ediblər.

Hərbi pilotların döyüş vərdişlərinin təkmilləşdirilməsi məqsədilə keçirilən uçuşlar zamanı yüksək peşəkarlıq nümayiş etdirilib.

# Bayram günlərində Müdafiə Nazirliyinin rəhbərliyi şəxsi heyətlə görüşüb





***Qurban bayramı münasibətilə Müdafiə Nazirliyinin rəhbər heyəti hərbi hissələri ziyarət edərək şəxsi heyətlə görüşüb.***

Müdafiə Nazirliyi xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev, Birinci vitse-prezident, hörmətli Mehriban xanım Əliyeva və müdafiə naziri general-polkovnik Zakir Həsənovun bayram təbrikləri şəxsi heyətə çatdırılıb.

Nazirliyin rəhbər heyəti, həmçinin döyüş mövqeyində hərbi qulluqçularla görüşüb, onların xidməti-döyüş fəaliyyəti ilə maraqlanıb.

# Azərbaycan HHQ komandanı Özbəkistana səfər edib




*Azərbaycan Respublikası müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Namiq İslamzadənin rəhbərlik etdiyi nümayəndə heyəti Özbəkistan Respublikasının Hava Hücumundan Müdafiə və Hərbi Hava Qüvvələrinin komandanı general-mayor Axmad Burxanovun dəvəti ilə Özbəkistan Respublikasına səfər edib.*

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə Daşkənddə yerləşən Heydər Əliyev park-meydanında Ulu Öndərin abidəsi ziyarət olunub, abidə önünə gül dəstələri düzülərək Ümummilli Liderin xatirəsinə dərin hörmət və ehtiram nümayiş etdirilib.

General-leytenant Namiq İslamzadə Özbəkistan Respublikasının müdafiə naziri general-mayor Şuhrat Xalmuxamedov və özbək həmkarı general-mayor A.Burxanov ilə görüşüb.

Keçirilən görüşlərdə hər iki ölkə arasında hərbi sahədə əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub, Azərbaycanın Özbəkistanla hərbi aviasiya və hava hücumundan müdafiə sahəsində təcrübə mübadiləsinin inkişaf etdirilməsi üçün qarşılıqlı səfərlərin əhəmiyyəti və digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti, həmçinin "Çirçik" aerodromu və hərbi hissələrdən birini ziyarət edib, müəssisələrin fəaliyyəti və orada yaradılmış şəraitlə tanış olub.

Sonda qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə olunub, suallar cavablandırılıb.

# XTQ-də "Sonsuz-Qardaşlıq-IV" çoxmillətli təliminin planlaşdırma konfransı keçirilib



Cari ilin sentyabr ayında Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan və Pakistanın Xüsusi Təyinatlı Qüvvələrinin (XTQ) iştirakı ilə ölkəmizdə keçiriləcək "Sonsuz-Qardaşlıq-IV" çoxmillətli təliminin yekun planlaşdırma konfransı təşkil edilib.

Müdafiə Nazirliyi xəbər verir ki, Bakıda keçirilən konfransda iştirakçı ölkələrin XTQ mənsubları təlimin gedişatını və təşkilati məsələləri müzakirə edərək müxtəlif aspektlərə dair maraq doğuran sualları cavablandırıblar. Görüş zamanı xüsusi təyinatlıların birgə əməliyyat hazırlığı və qarşılıqlı əlaqədə fəaliyyətlərinin təşkili diqqət mərkəzində olub.

Təlimin praktiki mərhələsi üçün ətraflı planlaşdırma aparılıb və müxtəlif ssenarilər üzrə icra olunacaq tapşırıqlar müzakirə edilib. Konfransda, həmçinin hərbi əməkdaşlıq və təcrübə mübadiləsi kimi vacib məsələlərə də toxunulub.

"Sonsuz-Qardaşlıq-IV" çoxmillətli təlimi iştirakçı ölkələrin birgə əməliyyat qabiliyyətlərini artırmaq və regional təhlükəsizliyin gücləndirilməsinə töhfə vermək məqsədini daşıyır.



# NATO DTMM-də Azərbaycan Bayrağı qaldırılıb




*Türkiyə Respublikasının İstanbul şəhərində yerləşən Şimali Atlantika Müqaviləsi Təşkilatının Dəniz Təhlükəsizliyi Mükəmməlliyi Mərkəzində (NATO DTMM) iyunun 2-də Azərbaycan Respublikasının Dövlət Bayrağının qaldırılması mərasimi keçirilib.*

Müdafiə Nazirliyi xəbər verir ki, mərkəzin şəxsi heyətinin iştirak etdiyi mərasimdə Azərbaycan Respublikasının Dövlət Himninin sədası altında Dövlət Bayrağımız qaldırılıb.

Mərasimdə çıxış edən NATO DTMM-nin rəisi 1-ci dərəcəli kapitan Mehmet Cengiz Ekren dəniz təhlükəsizliyinin qlobal ticarətdə, beynəlxalq əməkdaşlıqda və kollektiv təhlükəsizlikdəki rolunu vurğulayaraq, onun bugünkü qloballaşan dünyadakı həlledici əhəmiyyətini qeyd edib. Eyni zamanda, Azərbaycan Respublikasının NATO DTMM-yə beşinci üzv kimi qəbul edilməsinin mühüm proses olması və mövcud üzv ölkələr - Türkiyə, Yunanıstan, Portuqaliya və Rumıniya ilə birlikdə dəniz təhlükəsizliyinin gələcəyini formalaşdırmaq öhdəliyinin göstəricisi olduğu vurğulanıb. Çıxışda, həmçinin 2025-ci ildən etibarən 3 il müddətinə NATO DTMM-də "EDU/007 - Təhsil üzrə Qərargah Zabiti" vəzifəsinə təyin edilmiş 3-cü dərəcəli kapitan Muradov Murad Eldar oğlunun xidmət müddətində qazandığı təcrübəni öz ölkəsində uğurla tətbiq edəcəyi əminliklə vurğulanıb.

Mərasimin sonunda Azərbaycan Respublikasının NATO DTMM-yə töhfə verən ölkə olaraq qatılması şərəfinə zabitimizə xatirə hədiyyəsi təqdim edilib.

Döyüş hazırlığı

# Tapşırıqları yüksək səviyyədə yerinə yetirmək üçün əlimizdən gələni əsirgəmirik

*Bu gün regionun ən güclü ordusu olan Azərbaycan Ordusunun qüdrəti onun şəxsi heyətinin döyüş hazırlığı ilə bağlıdır. Bunu 44 günlük Vətən müharibəsi və digər uğurlu döyüş əməliyyatları, qazanılan qələbələr, əldə olunan nəticələr tam təsdiq etdi.*



Azərbaycan Ordusunun şəxsi heyətinin döyüş hazırlığını artıran əsas amillərdən biri də mütəmadi olaraq keçirilən təlim və məşğələlərdir ki, bu da gənc əsgər hazırlığı dövründən başlayır. Hərbi xidmətə yeni çağırılmış gənc əsgərlər hərbin ilkin sirlərinə yiyələnir, sonrakı dövrlərdə isə ona aşılanan bilikləri müxtəlif təyinatlı təlimlərdə daha da möh-



kəmləndirirlər. Keçirilən hər bir məşğələ, hər bir təlim real döyüş şəraitinə uyğunlaşdırıldığı üçün hərbi qulluqçular da öyrəndikləri nəzəri bilikləri praktiki məşğələlərdə tətbiq edərək bilik və bacarıqlarını daha da təkmilləşdirirlər. İllik hazırlıq planına əsasən keçirilən təlimlərdə ən son döyüş əməliyyatlarında qazanılan təcrübələr daha əhatəli şəkildə hərbi qulluqçulara aşılanır.

"N" hərbi hissəsində mühəndis bölmələrinin şəxsi heyəti ilə keçirilən məşğələnin şahidi oldum. Hərbi qulluqçular xüsusi hazırlanmış mühəndis şəhərciyində ərazinin kəşfini aparır, minaaxtaranlar vasitəsilə mina və partlamamış döyüş sursatlarını aşkar edib zərərsizləşdirir, eləcə də digər tapşırıqları praktiki olaraq icra edirdilər.

Torpaqlarımızın ərazi bütövlüyü ilə suverenliyi uğrunda aparılan döyüş əməliyyatlarında mühəndis qoşunları da digər hərbi birləşmələrlə birlikdə üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirərək, Qələbənin əldə olunmasında və xalqımıza tarixi zəfərin sevincinin yaşadılmasında mühüm rol oynamışdır. Əməliyyatlar zamanı keçidaçma, mühəndis manevrlərinin dəf olunması, partlayıcı qurğu və döyüş sursatlarının zərərsizləşdirilməsi, təminat yollarının salınması və digər mühəndis təminatı üzrə fəaliyyətlər mühəndis-istehkam bölmələri tərəfindən qısa zamanda müvəffəqiyyətlə icra olunaraq, qoşunlarımızın hərəkəti üçün əlverişli şərait yaradıbdı.

Qələbə ilə yekunlaşan əməliyyatlardan sonra da mühəndis-istehkam bölmələrimiz öz fəaliyyətlərini davam etdirərək, ata-baba torpaqlarından didərgin düşmüş soydaşlarımızın öz yurd-yuvalarına qayıtması, onların həyat təhlükəsinin aradan qaldırılması üçün işğaldan azad olunmuş ərazilərimizdə xidməti fəaliyyətlərini müvəffəqiyyətlə davam etdiriblər.

Hərbi hissənin zabiti mayor Anar Bəxşəliyev ilə məşğələ yerinə yollandım. Zabit dedi ki, keçirilən məşğələlərdə əsas diqqət mühəndis təminatını yerinə yetirən hərbi qulluqçuların peşəkarlıq səviyyəsinin və döyüşə hazırolma vərdişlərinin, eləcə də silahlanmada olan müasir mühəndis avadanlıqlarından effektiv istifadə etmə üzrə bacarıqlarının təkmilləşdirilməsinə yönəldilir. "Hərbi qulluqçular onlara təhkim edilmiş avadanlıqların taktiki-texniki göstəricilərini, istismar xüsusiyyətlərini mükəmməl mənimsəməlidirlər. Nəzəri baxımdan mənimsənilmiş biliklər isə ancaq məşğələ və təlimlərlə möhkəmləndirilir. Buna görə də şəxsi heyət məşğələlərə məsuliyyətlə yanaşır, öyrədilənləri praktiki tətbiq edərək döyüş hazırlıqlarını artırırlar. Məşğələlərdə əsgərlərə ixtisasları barədə lazımi məlumatlar verilir. Bu məlumatların praktiki tətbiqetmə üsul və formaları da xatırladılır. Mütəmadi olaraq keçirilən bu cür dərslər Vətən müdafiəçilərinin döyüş hazırlığının artırılmasında əhəmiyyətli olur".

Baş leytenant Kənan Rzayev dedi ki, mühəndis-istehkamçılar döyüş zamanı əhəmiyyətli vəzifəni yerinə yetirirlər. "Əməliyyatlar zamanı bölmələrimizin hərəkəti üçün keçidlərin açılması və müxtəlif mühəndis maneələrinin dəf olunması döyüşün gedişatına təsir edən amillərdən biridir. Qazanılan müsbət nəticə bir çox hallarda mühəndis təminatı üzrə tapşırıqların vaxtında və dəqiq yerinə yetirilməsindən də asılıdır. Hər birimiz üzərimizə düşən məsuliyyəti dərk edir və mütəmadi olaraq keçirilən dərslər zamanı tabeliyimizdə olan şəxsi heyətin praktiki vərdişlərinin artırılmasına çalışırıq. Mühəndis-istehkamçıların peşəkarlığının artırılmasında keçirilən bu cür məşğələlərin böyük əhəmiyyəti vardır. Bugünkü məşğələdə xüsusi təchizatla təmin olunmuş mühəndis-istehkam qrupu tərəfindən ərazidə mühəndis kəşfinin aparılması, mina və partlamamış döyüş sursatlarının aşkar olunması, eləcə də digər mühəndis təminatı üzrə fəaliyyətlər icra olunur. Hərbi qulluqçularımız bu cür məşğələ və təlimlərdə yeni-yeni təcrübələr qazanır, vərdişlərini təkmilləşdirirlər".

Əsgər Ramal Musayev qısa bir müddətdə komandirlərindən mühəndis-istehkam peşəsinin sirlərini öyrəndiyini, istənilən tapşırığı icra etməyə hazır olduğunu bildirdi. "Mütəmadi olaraq dərslər keçirilir, öyrəndiklərimizi praktiki olaraq icra edirik".

Əsgər Şahmar Mirzəyev qeyd etdi ki, harada olmağımızdan asılı olmayaraq Vətənimizi sevməli, azad etdiyimiz torpaqlarımızı göz bəbəyimiz kimi qorumalıyıq. "Bu səbəbdən də təcrübəli döyüşçü kimi formalaşmaq əsas vəzifəmizdir. Vəzifələrimizin öhdəsindən layiqincə gəlmək üçün komandirlərimizdən hər şeyi öyrənməyə çalışır, təlim zamanı üzərimizə düşən tapşırıqları əzmlə yerinə yetiririk. Hər birimiz xidmətimizə məsuliyyətlə yanaşırıq".

Əsgərlər Xəyyam İmanov, Vasif Əliyev, Samir Rzayev, Sərxan Rzayev və başqaları da qeyd etdilər ki, həm sinif, həm də çöl dərslərində qarşımıza qoyulan tapşırıqları yüksək səviyyədə yerinə yetirmək üçün əlimizdən gələni əsirgəmir, Azərbaycan əsgəri adını layiqincə daşımaq üçün səylə çalışırıq.

**Baş leytenant**
**Elçin İMANOV**
**"Azərbaycan Ordusu"**



Əsgərin tribunası

# "Vətən sevgisi hər şeydən üstündür"

***Mən Azərbaycan Ordusunda xidmət edən bir əsgərəm. Bu müqəddəs torpağın keşiyində dayanmaq, şəhidlərimizin canlarından keçdiyi bu Vətəni qorumaq mənim üçün böyük fəxrdir, şərəfdir. Hər nə qədər ailəmdən, yaxınlarımdan uzaqda olsam da, səhərlər əsgər yoldaşlarımın ümid dolu baxışlarını gördükdə, səngərdə "Vətən sağ olsun!" deyə səsləndiklərini eşidəndə bu torpağı qorumaq üçün daha da ilhamlanıram, özümdə güc tapıram.***



Hərbi xidmət asan deyil. Burada işimiz təkcə səngərdə durmaqla bitmir. Əsgər həyatı bizi dözümlü edir, ruhumuzu gücləndirir. Biz burada dostlar qazanırıq, çörəyimizi bölüşür, bir-birimizin dərdinə şərik oluruq. Asudə vaxtlarımızda bir-birimizin bacarıqlarını kəşf edirik. Hər gün səhər idmanından başlayaraq nizam-intizamı, döyüş hazırlığını, silahın sirlərini və taktiki məşqləri öyrənirik. Boş vaxtlarımızda kitab oxuyur, tədbirlər keçirir, musiqi dinləyir, Vətənə olan sevgimizi daha da ucaldırıq. Bəzən evimizə məktub yazırıq - valideynlərimizə, doğmalarımıza... Bəzən də Vətənin hər bucağından gələn məktublar ruhumuzu ilhamlandırır. Bütün bunlar əsgər həyatının unudulmaz anlarıdır. Burada hər kəsin bir amalı var: Vətəni qorumaq.

Hər qarış torpaqda şəhidlərimizin qanı var. Onların müqəddəs xatirəsi bizim üçün ən böyük dəyərdir. 44 günlük Vətən müharibəsi xalqımızın birliyini, əsgər iradəsini və şəhidlərimizin canı bahasına qazanılmış şanlı Qələbəmizi göstərdi. Bu Zəfər daim yolumuzu işıqlandıracaq.

Əsgərlik həm də bizə həyat dərsi verir. Burada öyrəndiyim ən dəyərli dərs odur ki, Vətən sevgisi hər şeydən üstündür. Silahı tutmaq, ürəyindəki inamı qorumaq vacibdir. Əgər ürəyin Vətənlə döyünürsə, heç bir güc səni məğlub edə bilməz. Xalqımızın inamı, duaları bizə güc verir. Biz buradayıq və Vətənin keşiyindəyik. Əsgərin yolu şərəflidir, müqəddəsdir. Vətən sağ olsun!

**Əsgər**
**Maqsud SOLTANOV**
**"N" hərbi hissəsi**

# Döyüş hazırlığı daim yüksəldilir

(Əvvəli 1-ci səhifədə)

Şərti düşmənlə döyüş vərdişləri aşılayan müxtəlif təyinatlı, müxtəlif miqyaslı təlimlər hərbi hissədə vaxtaşırı keçirilir. Belə planlı təlimlər hər əsgərin hərbi xidmətinin mahiyyətini müəyyənləşdirir...

Xidmətə yaxın vaxtlarda başlayan əsgərlərin təlimidi. Birinci Qarabağ müharibəsində Murovdağ dağ silsiləsində döyüşçülər demişdilər ki, təbiət bizim döyüş əzmimizi, qələbə ruhumuzu titrədə bilməz. Mənə elə gəlir ki, belə təlimin mahiyyətində də beş il əvvəl eşitdiyim həmin duyğusal doğmalıq var. Maşın heyəti şərti düşmənin komanda məntəqələrini, mövqelərini dağıtmağa qadir olan artilleriya qurğusunun istismar xüsusiyyətlərini daha mükəmməl mənimsədən təlimdədi.

Kapitan Teymur Süleymanov bildirir ki, bu əsgərlər hərbi xidmətə təzəlikcə başlayıblar. Artilleriyaçı kimi ilkin bilikləri öyrəniblər, öyrənirlər, ilkin təmrinləri mənimsəyirlər. Bugünkü təlim də onların peşəkarlaşmasına yönəldilmiş təlimlərdən biridir. Bu təlim əsgərlərin ixtisaslar üzrə hazırlığının təkmilləşdirilməsini, verilən komandanın yerinə yetirilməsinin səlisliyini, vaxt amilinin gözlənilməsini və s. əhatə edir. Bu gün təlimə cəlb olunmuş əsgərlər belə təlimlərlə qısa müddətdə hazırlıqlı artilleriyaçı olacaqlar.

Təlimi bu inamın zəmanəti ilə izləyirik.

Əsgərlər heyət komandiri müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Mahmud Paşayevin əmri ilə yerinə yetirməli olduğu vəzifənin nədən ibarət olduğunu deyir, təmrini əvvəl nisbətən aramla, sonra sürətlə, gerçək döyüşün tələbi səviyyəsində icra edirlər. Komandirin əsgərə nəyisə yenidən izah etməsi gerçək dərs prosesini xatırladır: irad yerində, məqamında bildiriləndə səmərəli olur. Bu tezisə hərbi xidmətdə daha həssaslıqla əməl edilir.



Heyət üzvləri yerinə yetirməli olduğu təmrinləri beləcə təkrarlayırlar. Top heyəti şərti düşmənin şərti mövqeyinə atış aparacaq. Əsgərlərin hərəkətlərində nisbi həyəcan hiss olunur. Mənə elə gəlir ki, bu həyəcanın ömrü "Atəş!" əmri veriləndə bitəcək.

Öyrənirik ki, bu batareyada da həm təlimlərdən əvvəl, həm də asudə vaxtlarda maşının heyətinə İkinci Qarabağ müharibəsinin döyüşlərindən danışılır, bu hərbi hissənin artilleriyaçılarının, bu qurğuların Füzuli, Xocavənd, Şuşa istiqamətlərində döyüşənlərimizə atəş dəstəyi verdiyini, onların qələbələr qazanmasına mərmi-mərmi yol açdığını, döyüşənlərlə döyüşə-döyüşə Qələbəyə getdiyini, ... deyilir. Əsgərlər deyilənləri müharibə tariximizin bir zərrəsi bilməklə düşüncələrinə hopdurur, öyrədilənləri daha böyük sevgilərlə öyrənirlər. Bir dəfə əsgərlərdən biri deyib ki, biz komandirimizin icazəsi ilə tərxis olunanda "Qrad"ımızın yanında xatirə şəkli çəkdirəcəyik. Bu, həm hərbi xidmətə sevgidi, həm də artilleriyaçı olmağın qürurudu. Gözəl sevgidi, gözəl qürurdu...

Heyət üzvləri - Əli Fərhadov da, Xəyal Aslanov da, Əziz Əjdərov da, Rəhim Dadaşov da əmrə müvafiq vəzifələrini yerinə yetirməyə hazırdırlar. "Atəş!" əmri verilir. Bayaq duyduğum həyəcan sovuşub. Əsgərlər əmri rəvanlıqla, tələsmədən, ləngimədən yerinə yetirirlər. Komandir atışın aparılmasından da, şərti nəticəsindən də razı qalıb. İncə bir təbəssümlə maşının heyətinə baxır. Mənə elə gəlir ki, bu baxış, belə baxış İkinci Qarabağ müharibəsində Füzulidə, Xocavənddə atışları beton səddi dağıdandan sonra Şuşa istiqamətində batareya komandirlərinin əsgərlərin üzündə gəzişmiş baxışlarının eynidi. Heyət üzvləri fikrimi bəyənir, komandir fikrimi təsdiqləyir. Gülümsünür. Bu gülümsəmənin səbəbini top heyətinə də bildirirəm. Bayaqkı baxışların eyni indi onun özünə ünvanlanır. Tarixi Zəfərə görə, torpaqlarımızın işğaldan azad edilməsinə görə.

Azərbaycan əsgəri üçün bir fəsil var: Vətənə sevgi fəsli... Təlim davam edir...

Heyət komandiri Mahmud Paşayev deyir ki, təmrinlər təkrarlandıqca daha etibarlı səviyyədə mənimsənilir. Bu, peşəkarlaşma prosesidir. Həqiqi hərbi xidmətdə olanda biz də belə öyrənirdik, təlimlərlə belə peşəkarlaşırdıq. Yüksək döyüş hazırlığına nəzəri biliklərin təcrübi təkmilləşdirilməsi ilə nail olunur.

Tuşlayıcı Əli Fərhadov deyir ki, hərbi xidmətə gələn əsgər hansı hərbi vəzifələri yerinə yetirəcəyini bilmir. Tapşırılan işi məsuliyyətlə və vaxtında yerinə yetirmək onun əsgəri borcudur. Top heyətimiz artilleriyaçı olması ilə qürur duyur. Hələ hərbi xidmətə gəlməmişdən əvvəl televiziyada bir artilleriyaçı əsgərin...

Əsgər Əziz Əjdərov əsgər yoldaşının fikrini tamamlayır:

- ...Vüsal Şahkərimovu deyirsən. O, hamının yaddaşında Topçu Vüsal kimi qalıb...

- ...atəş əmrini necə yerinə yetirdiyini, atəşin dəqiqliyinə necə sevindiyini görmüşdük. Artilleriyaçı kimi xidmətə başlayanda biz də onun kimi peşəkar artilleriyaçı olmağı qərara almışdıq. Nələrisə öyrənmişik, hələ çox öyrənəcəyik. Komandirimiz deyir ki, öyrənməyin nəhayəti olmur.

- Artilleriyaçı kimi öyrəndiklərimiz hələ çox genişlənəcək. Biz də nə vaxtsa Vüsal Şahkərimov kimi peşəkar topçu olacağıq. Asudə vaxtlarımızda bizdən əvvəl xidmət edən əsgər yoldaşlarımızla söhbətləşirik, onlardan da nələrisə öyrənirik ki, biz də onlar kimi kamil artilleriyaçı olaq.

- Nə vaxtsa gənc əsgərlər bizi də belə tanıyacaq, - Əli Fərhadov inamla belə deyir. Bu inam həm hərbi xidmətə sevgidi, həm də artilleriyaçı ixtisasına...

Kapitan Teymur Süleymanov deyir ki, hərbi hissəmiz tarixi döyüş yolu keçib. Neçə-neçə döyüşdə qələbə artilleriyaçılarımızın dəqiq atəşləri ilə qazanılıb. Onlar müxtəlif döyüşlərdə də döyüşənlərimizə vaxtında və sərrast atəş dəstəyi vermişdilər. Bir dəfə sizin qəzetdə bir yazı oxumuşdum: artilleriyaçı zabit müharibədə bir topdan düşmənə atılan mərmilərin sayını "Vətənə lazım olan qədər" kimi bildirmişdi. Gözəl cavab bütün artilleriyaçılara onda da xoş gəlmişdi, indi də xoş gəlir.

- Yəqin ki, bu "Qrad"dan da düşmənin komanda məntəqələrinə, mövqelərinə elə o qədər mərmi atılıb, - deyirəm. Zabit fikrimi təbəssümlə təsdiqləyir...

Təlim davam edir. Şərti komanda məntəqəsindən şərti düşmənin dayaq məntəqəsinin koordinatları verilib. Top heyəti "Atəş!" əmrini yerinə yetirməyə hazırdır. Hamısı əmrin veriləcəyi anı gözləyir...

Bir dəfə təlimdə soruşmuşdum ki, darıxırsınızmı? Mənə könül xoşluğu verən cavab eşitmişdim. Sualım hərbi xidmətə aid olsa da, əsgər sualın cavabını məhz həmin təlimin zaman sərhədinə sığışdırmışdı: "Hazır ol!" komandasından "Atəş!" əmri verilən ana kimi darıxırıq. Mənə belə gəlmişdi ki, İkinci Qarabağ müharibəsində bütün artilleriyaçılarımız döyüşdə belə darıxıblar. Həm əmri yerinə yetirmək üçün, həm də bu əmrlərin gətirəcəyi Zəfər üçün! Tarixi Zəfərdən sonra xidmət edən bütün artilleriyaçı əsgərlər də özlərini qaliblərin davamçısı bilirlər...

Təlim başa çatır. Əsgərlər hərbi xidmət dövründə hələ neçə-neçə təlimlərlə peşəkarlaşacaqlar. Bu, Azərbaycan Ordusunun döyüş qabiliyyətinin yüksəldilməsi prosesidir...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

*Gənc zabitlərimiz*

# "Biz də yaxşı zabit olacağıq"

Ordu quruculuğu prosesi İkinci Qarabağ müharibəsində qazanılan tarixi Zəfərdən sonra böyük islahatlar həyata keçirilməklə davam etdirilir. Bu islahatlar hərbi təhsil sistemini də əhatə edir, nəticə etibarilə zabit və gizir kadrları hazırlığı qoşunlarının komplektləşdirilməsi prosesini tamamlayır.

Heydər Əliyev adına Hərbi İnstitutu bitirib qoşunlarda xidmətə başlayan gənc zabitlərin hərbi bilikləri təhsildə çöl çıxışları ilə möhkəmləndirilirdi, qoşunlarda xidmətə başlayandan sonra təcrübə ilə Müdafiə Nazirliyinin müəyyən etdiyi plan əsasında tamamlanması istiqamətində hərbi hissələrdə müəyyən tədbirlər də həyata keçirilir. Bunların mahiyyəti hərbi təhsil prosesinin davamıdır; gənc zabit qoşunlarda xidmətə daha mükəmməl hazırlıqlı zabit kimi başlayır və nəticə etibarilə ordunun döyüş hazırlığı yüksəlir.

"N" hərbi hissəsində müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisinin müvafiq tapşırığına əsasən, bölmələrdə xidmətə başlayan gənc zabitlər üçün aylıq toplanışlar təşkil olunur. Bu toplanışlar hərbi xidmətə başlayan gənc zabitlərin praktiki və nəzəri biliklərinin yüksəldilməsində, xidmətini daha bacarıqlı zabit kimi davam etdirməsində əhəmiyyətli olur. Belə toplanışlar da mahiyyəti baxımından tədris prosesinin davamı hesab edilə bilər.

Leytenant Emil Mustafayev bu toplanışların əhəmiyyəti haqqında dedi:

- Mən də ixtisasım üzrə müəyyən biliklər öyrənmişdim, təcrübi vərdişlərə yiyələnmişdim. Hərbi hissədə xidmətə başlayanda belə toplanışların təşkil edilməsinə mən də, digər gənc zabitlər də sevindik. Bu toplanış bizim zabit kimi formalaşmağımızda əhəmiyyətli olacaq. Bir ay müddətində həftədə bir dəfə keçirilən belə məşğələlərdə konkret tapşırıqlar yerinə yetirirік, başlıca olaraq hesablamalar aparırıq ki, bu da bilavasitə xidmətimizin tərkib hissələrindən biridir.



Gənc zabitlər üçün təşkil edilən bu toplanış kompleks məşğələ formatında həyata keçirilir, həftə ərzində öyrədilmişlərin (əslində, xatırladılanların) necə mənimsənildiyi test üsulu ilə yoxlanılır. Toplantının xarakterində müəyyən sərbəstlik olduğuna görə gənc zabitlər sual-tapşırıqları daha sərbəst yerinə yetirirlər.

Leytenant Emil Mustafayev bildirdi ki, kursant olanda biliklərimizi fərdi hazırlıqla da artırırdıq. "Onda nəyi necə mənimsədiyimiz imtahanlarda bilinirdi. Bu toplantıda da fərdi hazırlıqdan bəhrələnilir, toplantıya cəlb olunmuş gənc zabit konkret tapşırığı necə mənimsədiyini həftənin sonunda bilir. Çətinməzlıq varsa, onu aradan qaldırmağa çalışır və buna nail olur. Belə toplantılar hərbi xidmətə başlayan gənc zabitlərin nəzəri bilikləri ilə təcrübi vərdişlərinin vəhdətini formalaşdırır, zabitin onların hərbi tapşırıqlara tətbiqini təmin etmə bacarığını da təkmilləşdirir. Bu baxımdan hərbi hissəmizdə təşkil edilən bu toplanış döyüş hazırlığının yüksəldilməsi üçün də əhəmiyyətlidir".

Emil Mustafayev Cəmşid Naxçıvanski adına Hərbi Liseyin, Heydər Əliyev adına Hərbi İnstitutun məzunudur. İxtisası üzrə institutu ən yaxşı nəticələrlə bitirənlərdən biri olub. Qoşunlarda xidmətə taqım komandiri kimi başlayıb. Bu toplantıda da verilmiş tapşırığı vaxtından əvvəl yerinə yetirdi. Təlim rəhbərindən öyrəndim ki, tapşırığı düzgün həll edib.

Taqım komandirinin bacarığı taqımın şəxsi heyətinin bacarığı deməkdir, taqımların döyüş hazırlığı - ordunun gücü. Bu baxımdan gənc leytenantların komandirlik səriştəsinin yüksəldilməsi bilavasitə ordu quruculuğu prosesinin tərkib hissəsi olur.

Leytenant Emil Mustafayev əminliklə dedi ki, yüksək döyüş hazırlığına malik olan şəxsi heyət istənilən döyüş tapşırığını yerinə yetirməyə qadirdir. Digər taqımların şəxsi heyəti kimi bizim taqımın şəxsi heyəti də İkinci Qarabağ müharibəsində tarixi Zəfər qazanmış igidlərimizin döyüş yolunu davam etdirməyə hazırdır...

Gənc zabit ordumuzun qüdrəti ilə də qürurlanır, əsgərlərin dövlətə, dövlətçiliyə, orduya, Hərbi Anda sədaqəti ilə də...

"Qürurlanıram ki, hərbçiyəm, qürulanıram ki, artilleriyaçıyam...", - leytenant Emil Mustafayev ehtirama layiq hərbçi ömrü yaşayacağına əmindir. Məsuliyyəti ilə, sevgisi ilə...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

*Hərb tariximizdən*

# Çar ordusunun “Xan” ləqəbli sərkərdə generalı

(Əvvəli 1-ci səhifədə)

Birinci Dünya müharibəsində 2 hərbi koalisiya formalaşmışdı: Almaniya, Avstriya-Macarıstan və İtaliya - Üçlər İttifaqı; - İngiltərə, Fransa, Rusiya-Antanta adı almış hərbi blok yaratdılar. 1914-cü ildə çar Rusiyası dünyada ən böyük orduya malik olmuşdur. Ordunun tərkibində 1816 batalyon, 1110 eskadron, 7088 top var idi. Rusiya bu hərbi gücün təxminən 85%-ni Avropadakı hərbi əməliyyatlara yönəltmək məqsədi güdürdü. Belə ki, Çar Rusiyası sayı 1 milyon 300.000 nəfər olan ordu və 5 milyon 650.000 nəfər olan təlim keçmiş ehtiyat qüvvəsinə malik idi.

Alman ordusunun 788.000 nəfər, ehtiyatda isə 4 milyon 900.000 canlı qüvvəsi var idi. Əksər ölkələrin silahlı qüvvələri quru qoşunları və hərbi dəniz donanmasından ibarət olub. Quru qoşunlarına piyada, süvari, topçu, xüsusi, mühəndis, rabitə hissələri, arxa cəbhə xidmətləri daxil idi. O zaman aviasiya və zirehli qüvvələr, yəni, zirehli avtomobillər və zirehli qatarlar mühəndis qoşunlarına aid idi. Qoşunlar ordularda birləşirdi, ordu isə korpus və diviziyalardan ibarət idi. Piyada diviziya 2 piyada briqada hər birində 2 alay, top briqadası, 1-3 süvari eskadronu, 1-2 istehkamçı bölüyü və arxa cəbhə bölmələrindən ibarət idi. Diviziyada 16-21.000 canlı qüvvə cəmlənmişdi.

Rusiya ilə müharibə Şərqi Prussiya üçün almanlar tərəfindən çox yaxşı möhkəmləndirilmiş döyüş meydanına çevrilmişdi. Bu meydanın sol cinahı yaxşı təchiz olunmuş Königsberq qalası ilə müdafiə edilirdi. Bu bölgədə Almaniyaya qarşı hərbi əməliyyatlar Şərqi Prussiya əməliyyatları adını aldı. Əməliyyatların aparılması Şimal-Qərb cəbhəsinə tapşırılmışdı. Cəbhə qarşısında qoyulmuş başlıca vəzifə, aşağı Visla da daxil olmaqla, Şərqi Prussiyanı ələ keçirtməkdən ibarət idi. Bu vəzifənin həyata keçirilməsi üçün cəbhə boyu 2 ordu düzülmüşdü.

Süvari generalı Pauel Karloviç von-Rennenkampfin komandanlığı ilə 1-ci ordu və süvari generalı A.V.Samsonovun komandanlığı ilə 2-ci ordu generalı P.K.Rennenkampfinin 1-ci ordusunu sağ cinahdan qorumaq üçün tərkibində 1-ci və 2-ci süvari qvardiyası və 3-cü süvari diviziyaları olan xüsusi süvari dəstəsi təşkil olunmuşdu. Dəstəyə komandanlıq general-leytenant Hüseyn xan Naxçıvanskiyə həvalə olunmuşdu. Bu avanqard dəstəyə Stalüpenin və Qumbineninin Şimalından keçməklə İnstenburq üzərinə hücum etmək əmri verilmişdi, digər qüvvələrin qarşısında isə Cənubdan hücuma keçməklə alman qruplaşmasını mühasirəyə salmaq məqsədi qoyulmuşdu.

Xan Naxçıvanski "yuxarıdan" göstərişləri gözləmədən sağlam düşüncəyə və silahdaşlarının cəsarətinə güvənərək sərbəst hərəkət edirdi. Süvari alayının tarixi Hüseyn xan Naxçıvanskinin süvari dəstəsinin şücaəti, əməliyyatları şanlı döyüş salnaməsi kimi qorunub saxlanılıb. Süvari dəstəsinin komandanı 1-ci Almaniya süvari diviziyasının Pilkallen şəhərində yerləşməsi haqqında məlumat alıb, ona hücum etmək qərarını verdi. General-leytenant Hüseyn xan Naxçıvanskinin dəstəsinin itisürətli hücum əməliyyatları nəticəsində alman şəhəri Pilkallen ələ keçirildi. Elə həmin avqust günlərində hərb tarixinə Kauşen döyüşü kimi daxil olmuş hadisələr başladı.

Avqustun 6-da səhər general-leytenant Hüseyn xan Naxçıvanski İnster çayının sol sahilində, Kauşen və Nauninqken arasındakı sahədə düşmənin keşikçi mühafizəsinin aşkarlanmasına dair məlumatlar aldı. Eyni zamanda, düşmənin piyada kolonunun Kraupişken kəndinə tərəf hərəkəti qeydə alınmışdı. Alman piyada qoşun hissələrinin ordunun sağ cinahı üçün çox təhlükəli ola biləcəyini nəzərə alan Hüseyn xan Naxçıvanski düşməni vurub geri atmaq, İnster çayı üzərindəki keçidi tutmaq qərarına gəldi. Keçidi yalnız Pelleninken kəndi yaxınlığında tutmaq əmri almasına baxmayaraq, Naxçıvanski öz qərarını dəyişmədi və bu gözlənilməz şəraitdə özünün cızdığı plan əsasında hərəkət etdi. Pilkallen və Kauşen kəndlərindən yağdırılan şiddətli çarpaz atəş süvari qvardiyasının irəliləməsinin qarşısını almasına baxmayaraq, xan Naxçıvanskinin yanında fəaliyyət göstərən böyük knyaz Dmitri Pavloviç komandirindən kəşfiyyat aparmaq və düşmən qüvvələrini dəyərləndirmək əmrini alaraq, riskli əməliyyatın öhdəsindən layiqincə gələ bildi.

Almanlar əks-hücum edəcəyi halda yenə də riskli əməliyyatın yerinə yetirilməsinə xan Naxçıvanskinin şəxsi ehtiyatında olan 3-cü eskadronun komandiri rotmistr baron P.N.Vrangel cəsarət etdi. Rotmistr Vrangelin cəsarətli həmləsi qurbanlar bahasına başa gəlsə də, bu xan Naxçıvanskinin süvari dəstəsi ilə birgə döyüşü qələbə ilə yekunlaşdırmağa imkan verdi. Süvari alayının qəniməti 2 top, 4 yeşik partlayıcı maddə və artilleriya müşahidə qülləsindən ibarət oldu.

Kraupişken kəndi yaxılığında ağır döyüşdə igidliklərinə görə xan Naxçıvanski süvari qvardiyaçılardan general-mayor Skoropadskinə, rotmistr baron Vrangelə və böyük knyaz Dmitri Pavloviçə ən mühüm hərbi orden olan 4-cü dərəcəli "Müqəddəs Georgi" ordenini təqdim etdi. Avqustun 12-də səhər tezdən xan Naxçıvanskinin süvari dəstəsi Allenburq üzərinə istiqamət götürdü, öndəki hissələr Pregel çayına yaxınlaşdı. Köniqsberq üzərinə ümumi hücum başlandı. Süvari dəstəsi Allenburq istiqamətində hərəkət etməli idi. Generalın süvari dəstəsi qarşıya qoyulmuş vəzifənin öhdəsindən bacarıqla gəldi.

Şərqi Prussiyada ağır avqust döyüşlərində Hüseyn xan qolundan yaralansa da, döyüş meydanını tərk etmir. 13 oktyabr 1914-cü il tarixdə Hüseyn xan 2-ci süvari korpusunun komandiri təyin olunur. Korpusa 12-ci süvari diviziya və Qafqaz yerli süvari diviziyası daxil idi.

General-leytenant Hüseyn xan Naxçıvanski süvari korpusu üzrə özünün 1 nömrəli əmrini Peremişel yaxınlığında Somborа adlanan yerdə 4 dekabr 1914-cü il tarixdə gündüz saat 1-də imzalamışdı.

İlk əmrdə göstərilirdi ki, korpus ertəsi günü, yəni, 5 dekabr tarixində Avstriya ordusuna zərbə endirməlidir. Digər qoşun hissələri - kəşfiyyat və rabitə də daxil olmaqla tabeliyindəki 2 diviziyanın döyüş vəzifələrini korpus komandiri dəqiq müəyyənləşdirmişdi. 1 nömrəli əmrlə iki müavin təyin edildi: biri general-leytenant Kaledin, ikincisi general-mayor əlahəzrət böyük knyaz Mixail Aleksandroviç idi. Sonrakı əmrlərdən göründüyü kimi, xan Naxçıvanskinin rəhbərliyi ilə tədricən digər birləşmələr verilir, eyni zamanda, vəzifələr böyüyür və mürəkkəbləşirdi. 14 dekabr 1914-cü ildə səhər saat 10:40-da imzalanmış əmrlər uğurla yerinə yetirilmişdi. Taktiki səhvlərə baxmayaraq, ikinci süvari korpusu uğurlu əməliyyatlar aparır, onun gücü əlavə edilmiş birləşmələr hesabına artırdı. Korpusun tərkibinə general-leytenant A.İ.Denikinin komandanlığı ilə atıcı briqada verilmişdi. Bir müddət general-leytenant Denikinin briqadası, sonra isə qarışıq dəstəsi xan Naxçıvanskinin tabeliyində olmuşdu.

Bir ildən bir az artıq vaxt keçəcək və Qalisiyadakı Lutski əməliyyatı yeni cəbhə komandanı general Aleksey Brusilovun şöhrətini göylərə qaldıracaqdır. Brusilovun uğur yolunda ilk rolu olan hərbi birləşmələrdən biri xan Naxçıvanskinin komandanlığındakı 2-ci süvari korpusudur. Rus ordusunun ali komandanlığı general-leytenant Hüseyn xan Naxçıvanskinin süvari dəstələrinin 1914-cü ilin avqustunda Şərqi Prussiyadakı fəaliyyətini əsas götürərək, hərbi orden sayılan "Müqəddəs Georgi" ordeninə, bu dəfə daha yüksək 3-cü dərəcəli ordenə layiq gördü. 2-ci "Müqəddəs Georgi" ordenini Hüseyn xan 1914-cü ilin oktyabrında döyüşən orduya baş çəkən hökmdar imperatorun öz əllərindən qəbul etmişdi.

12 noyabr 1914-cü il tarixdə Qalisiyada, xüsusən Stanislav şəhərində Avstriya-Macarıstan qoşunlarına qarşı ağır döyüşlərdə yenidən fərqləndiyinə görə general-leytenant xan Naxçıvanski növbəti döyüş ordeni ilə təltif edilir.

Bu gün Rusiya Dövlət Hərbi Tarix arxivində 1915-ci ilin mart-aprel tarixlərində imzalanmış 2-ci süvari korpusu üzrə məxfi əmrlər qovluğu saxlanılır. Həmin əmrlər korpus komandiri Hüseyn xan Naxçıvanski tərəfindən şəxsən tərtib edilmiş və imzalanmışdır.

Dnestr üzərində Zaleşiki şəhəri yaxınlığında əməliyyat ayrıca bir hərbi epopeyadır. O, məşhur əməliyyat olmasa da, Cənub-Qərb cəbhəsinin hərbi şəraiti üçün əsas idi. Zaleşiki əməliyyatı süvari də daxil olmaqla bir çox qoşun növlərinin döyüşlərdə göstərdikləri hünər və rəşadətin parlaq nümunəsidir. RDHTA-da Hüseyn xan Naxçıvanski tərəfindən Zaleşiki şəhərindəki döyüşlərin gedişi zamanı yazılmış və imzalanmış əmrləri tapmaq mümkündür. 5 aprel tarixli əmr xan Naxçıvanskinin imzaladığı sonuncu əmr oldu. Korpus komandiri ağır kontuziya alır və bu dəfə döyüşən ordunu tərk etmək məcburiyyətində qalır. 1915-ci il mayın 1-də döyüşən ordunu tərk edən Hüseyn xan Naxçıvanskiyə əlahəzrət mükafatı - düşmənə qarşı əməliyyatlarda fərqləndiyinə görə "Ağ Qartal" ordeni təqdim olunur. Ənənəyə görə bu ordenlə generalitet həm də yalnız hərbi şücaətə görə təltif olunurdu. Bu təltifdən 1 ay sonra - 1 iyun 1915-ci ildə Hüseyn xan rus ordusunda ən yüksək hərbi rütbəyə layiq görülür. Hökmdar imperator Nikolay Aleksandroviç bu yüksək rütbəyə aid ali dövlət aktlarını şəxsən özü imzalayırdı: "Hərbiyyə üzrə Əlahəzrət əmri. 1 iyun 1915-ci il, Çarskoya Seloda. Təyin olunur: Süvari üzrə: Qvardiya kavaleri 2-ci süvari korpusun komandiri general-leytenant Hüseyn xan Naxçıvanski - imperator Əlahəzrətlərinin general Adyutantı (tutduğu vəzifədə) saxlanılmaqla".

Son olaraq onu da qeyd etməliyəm ki, tam süvari generalı Hüseyn xan Naxçıvanski çar Rusiyasının nizami ordusunda nəinki imperator Nikolay Aleksandroviçin çarlığı dövründən, ümumilikdə, Böyük Pyotr zamanından dövrümüzədək yeganə müsəlman general-adyutant olub.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

# “Azərbaycan 8 Noyabr Zəfəri ilə regionda sabitlik və tərəqqini təmin edib”

44 günlük Vətən müharibəsindəki Qələbə Azərbaycan xalqının və dövlətinin tarixində, onun gələcək taleyinin müəyyən edilməsində həlledici rol oynadı. Bu Qələbə sayəsində Azərbaycan sadəcə işğaldakı torpaqlarını azad etmədi, eyni zamanda, özünü bir dövlət olaraq növbəti dəfə tarix qarşısında təsdiq etdi. Azərbaycan Silahlı Qüvvələri Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında əldə etdiyi bu böyük Qələbə ilə sübut etdi ki, ordumuz öz xalqını, dövlətinin ərazi bütövlüyünü qorumağa qadirdir. 44 günlük Vətən müharibəsindəki Qələbə ilə Azərbaycan dövləti öz suverenliyini də bərpa etmiş oldu. 30 ilə yaxın müddətdə erməni işğalı altında qalan ərazilərimiz üzərində dövlətimizin faktiki nəzarəti bərpa edildi.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri polkovnik Cəlil Xəlilov səsləndirib.

Onun sözlərinə görə, Qələbə Azərbaycana siyasi baxımdan da böyük dividentlər qazandırdı: "Hərb meydanında əldə edilən Qələbə Azərbaycanın diplomatik sferadakı mövqeyini möhkəmləndirdi. Azərbaycan danışıqlar masasına qalib tərəf kimi əyləşdi. 2020-ci ilin 10 Noyabr üçtərəfli Bəyanatının timsalında Ermənistan kapitulyasiyaya bərabər sənəd imzaladı ki, bu da diplomatiyamız adına tarixi uğurdur. Qələbə Azərbaycanın nüfuzunun beynəlxalq müstəvidə ciddi şəkildə artmasına, qlobal güclərin ona olan münasibətinin əhəmiyyətli dərəcədə dəyişilməsinə səbəb oldu".

Cəlil Xəlilov, həmçinin bildirib ki, Vətən müharibəsindəki Qələbə mənəvi baxımdan da Azərbaycana böyük üstünlüklər qazandırdı: "Bu Qələbə milli qürurun, xalqımızın özünə olan inamının güclənməsinə səbəb oldu. Qalib xalq, qalib dövlət imici post-müharibə dönəmindəki proseslərə daha qətiyyətlə yanaşmağımızı təmin etdi. Bir sözlə, bu Qələbə xalqımızın və dövlətimizin həyatında müsbət mənada yeni bir dönəmin başlanğıcı oldu".

O vurğulayıb ki, 44 günlük Vətən müharibəsindəki Qələbə Cənubi Qafqazda yeni reallıqlar yaratmaqla yanaşı, beynəlxalq münasibətlər sistemində də ölkəmizlə bağlı ciddi yeniliklərə yol açdı. "8 Noyabr Zəfəri göstərdi ki, Azərbaycan sadəcə iqtisadi deyil, həm də hərbi gücünə görə regionun lider dövlətidir. Cənubi Qafqazın gələcək taleyi əsaslı dərəcədə Azərbaycandan, onun mövqeyindən və yürütdüyü siyasətdən asılıdır. Bu Qələbə dünyanın Azərbaycana olan baxışını da ciddi şəkildə dəyişdirdi. Azərbaycan torpaqlarının işğal altında qalmasından istifadə edərək dövlətimizə siyasi, iqtisadi və digər müstəvilərdə təzyiq göstərməyə çalışan qlobal güclər 8 Noyabr Zəfərindən sonra bu imkandan məhrum oldular. Onlar Azərbaycana təzyiq göstərmək üçün istifadə etdikləri imkan və vasitələri birdəfəlik itirdilər. 8 Noyabr Zəfəri Azərbaycanın beynəlxalq aləmdəki nüfuzunu da artırdı. Vaxtilə Azərbaycanın gücünə şübhə edən, onun daha bir neçə il məğlub statusunda qalacağını güman edən güclər 8 Noyabr Zəfəri ilə məyus oldular. Onların Azərbaycanı siyasi-psixoloji təzyiq içində saxlamaq siyasəti iflasa uğradı. Dünya qalib Azərbaycan gerçəyi ilə barışmaq məcburiyyəti qarşısında qaldı", - deyə o, diqqətə çatdırıb.

Cəlil Xəlilov Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının hər zaman dünya veteran təşkilatları ilə sıx əlaqələr qurmağa çalışdığını da qeyd edib: "Bu əlaqələr bizə veteranlarla bağlı məsələlər ətrafında geniş fikir və təcrübə mübadiləsi aparmaqla yanaşı, Azərbaycan həqiqətlərini daha geniş miqyasda təbliğ etmək imkanı qazandırır. Bu gün biz qalib xalq və dövlət olaraq günümüzün həqiqətlərini qürur hissi ilə, Qələbə sevinci ilə təbliğ edirik".

Sədr təşkilatın sıralarının genişlənməsindən də danışıb. O vurğulayıb ki, son bir ildə üç mindən çox Vətən müharibəsi iştirakçısı Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatına üzv olub. "Veteranlıq xüsusi və şərəfli status olmaqla yanaşı, həm də məsuliyyətdir. Odur ki, bu məsuliyyəti hər kəsin, hər bir veteranın dərk etməsi, bu məsuliyyətdən irəli gələn məsələlərə xüsusi həssaslıqla yanaşması vacibdir", - deyə Cəlil Xəlilov diqqətə çatdırıb.

## Görkəmli şəxsiyyətlər

# Azərbaycan Xalq Cümhuriyyəti Ordusunun ilk Baş Qərargah rəisi - general-mayor Həbib bəy Səlimov



***Həbib bəy Səlimov 1881-ci il fevralın 8-də İrəvanda anadan olub. Atası Yusif bəy İrəvan quberniyasında məhkəmədə çalışıb. İlk təhsilini İrəvan Müəllimlər Seminariyasında alan Həbib bəy daha sonra elə həmin şəhərdə gimnaziyaya daxil olub və gimnaziyanı birinciliklə bitirib. O, 1900-cü ilin avqustunda orduya könüllü yazılaraq 156-cı Yelizavetpol (Gəncə) süvari alayında xidmət edib, "unter-zabit" rütbəsi alıb. 1902-ci ildə Tiflisdə süvari məktəbini bitirəndən sonra 3-cü Qafqaz atıcı batalyonunda xidmətə başlayıb və "podporuçik" hərbi rütbəsinə layiq görülüb.***

1905-ci ildə batalyon komandirinin yavəri, 1907-ci ildə həmin hərbi hissədə 3-cü rotanın komandiri təyin olunub. Həmin ilin sentyabrında "Müqəddəs Vladimir" ordeni ilə təltif edilib. Həbib bəy 1908-1910-cu illərdə 5-ci Qafqaz atıcı batalyonunun tərkibində Naxçıvanın Culfa sərhədlərində xidmət edib, məxfi tapşırıqla Tehrana göndərilib. 1912-ci ildə "kapitan" rütbəsi alıb. Daha sonra Peterburqda Baş Qərargahın Nikolayev Hərbi Akademiyasını bitirib.

O, 1918-ci il martın 14-dən Müsəlman korpusunda xidmətə başlayıb. Sonradan korpusun üç süvari alayından ibarət briqadasının qərargah rəisi təyin edilib.

Azərbaycan Xalq Cümhuriyyəti elan edildikdən sonra H.Səlimov Qafqaz İslam Ordusunun tərkibində daşnak-bolşevik qoşunlarına qarşı döyüşlərdə fəal iştirak edib. Onun komandanlığı altında formalaşdırılan Müsüslü dəstəsi Müsüslü, Kürdəmir və Karrar ətrafındakı döyüşlərdə daşnak-bolşevik hərbi birləşmələri üzərində parlaq qələbə qazanıb. 1918-ci ilin iyulun ortalarında Müsüslü dəstəsinin bazasında yaradılan Cənub qrupu Həbib bəyin komandanlığı altında Bakı ətrafına qədər şərəfli döyüş yolu keçib. Azərbaycan qoşunlarının Gəncədən Bakıya qədərki yürüşü zamanı Atbulağı, Nəvahini (indiki Hacıqabul rayonunun ərazisi) və Ələti erməni-bolşevik qüvvələrindən azad edib. Bu nailiyyətlərinə görə hələ daşnak-bolşeviklərə qarşı əməliyyatların davam etdiyi dövrdə ona "polkovnik" hərbi rütbəsi verilib.

1918-ci il noyabrın 15-də Hərb Nazirliyinin əmri ilə H.Səlimov Azərbaycan Ordusunun Ümumi qərargahının və nazirliyin dəftərxanasının rəisi təyin edilib. 1919-cu ilin fevralında Nazirlər Şurasının qərarı ilə Bakının azad edilməsindəki xidmətlərinə görə "general-mayor" rütbəsinə layiq görülüb.

1919-cu ilin iyulunda briqada generalı Həbib bəy Səlimovun komandanlığı ilə Muğanda və Lənkəranda Azərbaycan milli hökumətini tanımaq istəməyən rus-erməni silahlı qüvvələri darmadağın edilib.

1920-ci il fevralın 17-də Həbib bəy Səlimov Hərb nazirinin əmri ilə Azərbaycan Ordusu qərargahının yenidən qurulması üçün yaradılan komissiyanın sədri təyin edilib. Azərbaycan Ordusunun vahid qərargahının yaradılmasından sonra Həbib bəy onun rəisi təyin edilib.

Həbib bəy Səlimovun başlıca xidmətlərindən biri 1920-ci ilin mart-aprel aylarında uğurla keçirilmiş Qarabağ əməliyyatıdır. Bu əməliyyat zamanı dövlətə xəyanət edərək, silahlı qiyam qaldırmış erməni-daşnak silahlı birləşmələrinə ağır zərbə vurulub, bölgədə Azərbaycanın suveren hüquqları bərpa edilib. Belə ki, 1920-ci ilin mart-aprelində Qarabağda "Dro" ləqəbi ilə tanınan Drastamat Kanayanın başçılıq etdiyi ermənilərin silahlı dəstələrinin üsyana qalxmasından sonra Azərbaycan Xalq Cümhuriyyəti Ordusunun böyük bir qismi Həbib bəy Səlimovun rəhbərliyi ilə bu üsyanı yatırmaq üçün Qarabağa göndərilib. Əsgəran keçidini tutan üsyançılar Azərbaycanın digər əraziləri ilə Dağlıq Qarabağın əlaqə yolunu kəsmişdilər. Həbib bəy Səlimovun hərbi zəkası və bacarığı nəticəsində erməni üsyanı yatırılıb və onlar cəzalandırılıblar. "Əsgəran müharibəsi" adı ilə məşhur olan bu döyüşlərdə Həbib bəy Səlimov misilsiz qəhrəmanlıqlar göstərib.

Həbib bəy Səlimovun hərb tariximizdə xidmətləri və Bakının azad edilməsində sərkərdəlik bacarığı misilsizdir.

Həbib bəy Səlimov 1920-ci il aprel istilasından sonra ordu sıralarından istefa verib. Həmin ilin mayında Naxçıvana hərbi komissar təyin olunub.

1920-ci il sentyabrın 1-də Həbib bəy saxta ittihamlarla həbs olunub və həmin ilin dekabrın 30-da bolşeviklər tərəfindən güllələnib.

Özünü hərbi peşəyə və Vətənə xidmətə həsr edən Həbib bəy Səlimov ailə qurmayıb.

**"Azərbaycan Ordusu"**

## Tibb xidməti

# Sağlam əsgər - güclü ordu, güclü ordu - müstəqil və təhlükəsiz dövlət deməkdir

**(Əvvəli 1-ci səhifədə)**

Azərbaycan dövləti bu sahədə həm paytaxtda, həm də regionlarda irimiqyaslı layihələrə imza atmışdır. Yeni xəstəxanaların tikilməsi, tibb müəssisələrinin əsaslı təmir olunaraq müasir tibbi avadanlıqlarla təmin edilməsi, peşəkar tibbi heyətin hazırlanması istiqamətində görülən işlər səhiyyənin ümumi səviyyəsini yüksəltmiş, vətəndaş məmnunluğunu artırmışdır. Bu prosesdə beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi də diqqətdən kənarda qalmamış, mütəmadi olaraq təşkil olunan yerli və beynəlxalq təlimlər vasitəsilə həkimlərin bilik və bacarıqları yüksəlmişdir.

Səhiyyə sahəsindəki bu inkişaf dinamikası, təbii olaraq, ölkənin təhlükəsizliyində mühüm rol oynayan hərbi tibb sahəsinə də öz təsirini göstərmişdir. Müasir ordu yalnız yüksək döyüş qabiliyyəti ilə deyil, həm də sağlam, psixoloji baxımdan sabit və peşəkar şəxsi heyəti ilə fərqlənir. Məhz bu səbəbdən Azərbaycan Ordusunda tibb xidmətinin təşkili və inkişafı strateji məsələ olaraq daim diqqət mərkəzində saxlanılır.

Hazırda Azərbaycan Ordusunda fəaliyyət göstərən tibb xidmətləri yüksək təşkilati struktur, müasir texniki-tibbi baza və peşəkar tibbi heyətlə təmin olunmuşdur. Hərbi hissələrdə, xüsusilə cəbhəyanı ərazilərdə yerləşən tibb məntəqələrində yaradılmış şərait hərbi qulluqçuların sağlamlığının qorunması, vaxtında müayinə və müalicə olunması, zərurət yarandıqda isə təxliyə və ixtisaslaşmış tibb müəssisələrinə çatdırılması baxımından mühüm rol oynayır.

"N" hərbi hissəsinin tibb məntəqəsində apardığımız müşahidələr də dediklərimizi bir daha təsdiq edir. Burada fəaliyyət göstərən tibb personalı yüksək peşəkarlığı, intizamı və vətənpərvərliyi ilə fərqlənir. Məntəqə müasir tibbi avadanlıqlarla təchiz olunmuş, dərman və digər tibbi ləvazimatlarla təmin edilmişdir. Hərbi qulluqçular mütəmadi olaraq tibbi müayinədən keçirilir, onların sağlamlıq vəziyyəti daim nəzarətdə saxlanılır. Tibb heyəti gündəlik iş rejimində fövqəladə hallara hazırlıqlı olmaqla yanaşı, həm də profilaktik tədbirlərə xüsusi diqqət yetirir.

Məntəqənin feldşeri gizir Peman Səfa oğlu Ağayev söhbətimiz zamanı bildirdi ki, burada çalışan heyət təkcə tibbi biliklərinə görə deyil, həm də psixoloji dayanıqlıq və insani keyfiyyətlərinə görə seçilir. "Bizim üçün hər bir əsgər əmanətdir. Onların sağlamlığı, rifahı və döyüş hazırlığı əsas vəzifəmizdir". O qeyd etdi ki, son illər ərzində tibbi heyət üçün təşkil olunan ixtisasartırma kursları, həmçinin beynəlxalq əməkdaşlıq çərçivəsində keçirilən seminarlar onların biliklərini müasir səviyyəyə çatdırmağa imkan verir.

Gizir Peman Ağayev bu peşəni sadəcə bir vəzifə kimi deyil, həm də Vətənə xidmət missiyası kimi qəbul edir. 2002-ci il martın 9-da Qəbələ rayonunun Tikanlı kəndində anadan



olan Peman Ağayev 2019-2021-ci illərdə Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsində təhsil alaraq feldşer ixtisasına yiyələnib. Hələ kursant olduğu dövrdə Vətən müharibəsində iştirak edib. Füzuli, Cəbrayıl və Qubadlı istiqamətlərində gedən döyüşlərdə yaralıların həyatını xilas etmək üçün cəbhənin ön xəttində xidmət göstərib.

Onun peşəsinə və Vətəninə bağlılığı təkcə müharibə dövrü ilə məhdudlaşmır. Peman 2023-cü ilin sentyabrında keçirilən antiterror əməliyyatında da böyük fədakarlıq göstərib. Yaralıların təxliyəsi zamanı avtomobilin partlaması nəticəsində borotravma almasına baxmayaraq, xidmətini davam etdirmək əzmini itirməyib. Bu ağır təcrübə onun iradəsini sarsıtmayıb, əksinə, daha da möhkəmləndirib. Bu peşəyə sevgisinin təməlində isə həm öz iradəsi, həm də atasının istəyi dayanır. Onun həyat yolu və fəaliyyəti tibb məntəqəsində çalışan gənc feldşerlər üçün nümunədir.

Tibb məntəqəsində olduğumuz zaman növbətçi-həkim gizir Peman Ağayev əsgərlərin planlı tibbi müayinəsini aparırdı. Müayinə zamanı əsgər Rövşən Qarayevin ayaqlarında yüngül şişkinlik müşahidə olundu və dərhal ilkin diaqnostik tədbirlər görüldü. Gizir Ağayev onun ayağında hər hansı travmatik fəsadın yaranmaması üçün əlavə müayinələrə ehtiyac olduğunu qeyd etdi.

Digər əsgər Elşad Quliyevin isə döş qəfəsində ağrılar vardı. Peman diqqətli şəkildə ilkin müayinələr apardı, simptomların daha da ağırlaşmaması üçün dərhal tədbir gördü və əlavə müayinə üçün yönləndirmə etdi. Bu proses bir daha göstərdi ki, məntəqədə fəaliyyət göstərən tibb personalı hərbi qulluqçuların sağlamlığını diqqətlə izləyir, hətta ən cüzi narahatlıqlara belə biganə yanaşmır.

Şübhəsiz ki, hərbi tibb sahəsində həyata keçirilən tədbirlər təkcə müharibə şəraitində deyil, həm də sülh dövründə ordunun döyüş qabiliyyətinin qorunması üçün vacibdir. Əsgərin sağlamlığı onun silahı qədər önəmlidir. Sağlam əsgər sağlam ordu deməkdir. Bu isə Vətənin etibarlı müdafiəsi anlamına gəlir.

Azərbaycan Ordusunun 2020-ci il Vətən müharibəsində qazandığı möhtəşəm Qələbə zamanı da hərbi tibb xidmətinin rolu danılmazdır. Döyüş meydanında yaralanmış əsgərlərin vaxtında və peşəkar tibbi yardımla təmin olunması, onların tez bir zamanda təxliyəsi və müalicəsi nəticəsində yüzlərlə insanın həyatı xilas edilmişdir. Bu uğurun arxasında məhz belə hazırlıqlı və fədakar tibb heyətinin əməyi dayanır.

Bu gün Azərbaycanın hərbi tibb sistemi ölkənin ümumi səhiyyə siyasətinə inteqrasiya olunmuş vəziyyətdə fəaliyyət göstərir və müasir çağırışlara cavab vermək qabiliyyətinə malikdir. Hərbi tibb xidmətinin bu səviyyəyə çatdırılması dövlətin orduya, onun hər bir əsgərinə göstərdiyi diqqət və qayğının bariz nümunəsidir. Bu istiqamətdə aparılan islahatlar davamlı şəkildə həyata keçirilir və gələcəkdə daha yüksək nəticələrə yol açacaqdır".

Unutmayaq ki, sağlam əsgər güclü ordu, güclü ordu müstəqil və təhlükəsiz dövlət deməkdir. Bu həqiqət əsasında qurulan siyasət Azərbaycanın sabaha daha inamla addımlamasını təmin edir.

**Eltun MƏMMƏDOV**
**"Azərbaycan Ordusu"**

*Vətənpərvərlik*

# Hərbi vətənpərvərlik azərbaycançılıq əsasında aparılır

*Ordu quruculuğu dövlətçiliyin qorunmasında və möhkəmlənməsində mühüm əhəmiyyətə malikdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qürurla dediyi kimi: "Azərbaycan güclü dövlətdir və onun güclü ordusu vardır". Bu güclü ordu ərazilərimizi işğaldan azad etdi və ərazi bütövlüyümüz tam bərpa olundu. Hər bir dövlətin əsas atributlarından olan milli ordunun hərbi vətənpərvərlik ruhunda tərbiyəsi əsas şərtlərdəndir. Tarixi Zəfərimizdən sonra ölkədə ordu quruculuğunun yeni mərhələsi başladı. Əvvəlki dövrlərdə ordunun başlıca vəzifələri əraziləri işğaldan azad etmək idisə, sonrakı mərhələnin missiyası torpaqlarımızın daha ciddi müdafiəsi və suverenliyimizin qəsbkarlardan qorunmasından ibarətdir. Yüksək döyüş və mənəvi-psixoloji hazırlığa əsaslanan güclü müdafiə hər bir hərbi qulluqçunun xidmətinin başlıca tərkib hissəsidir...*



Orduda şəxsi heyətin mənəvi-psixoloji hazırlığını yüksəltməyin müxtəlif forma və metodları var və onların hər biri klassik iş üslubunun bazasında bu üslubun ideoloji müstəvisində yeniliklər sisteminin elmi əsaslarla tətbiqi ilə yerinə yetirilir. Hərbi qulluqçuların vətənpərvərlik ruhunda tərbiyə olunması bütün formaları və metodları ümumiləşdirir. Vətənpərvərlik ruhunda tərbiyə istilahı (termini) pedaqoji fəaliyyət deməkdir. Orduda belə fəaliyyət siniflə (auditoriya ilə) məhdudlaşmır, yeni hərbi biliklər mənimsətmək də vətənpərvərlikdir, bu bilikləri təcrübi təkmilləşdirmək də, döyüş verdişləri aşılamaq da, ...

Vətənpərvərlik tərbiyəsi ailədən, məktəbdən başlayır. Hərbi xidmətə gələn gənc əsgərin vətənpərvərlik tərbiyəsi bu mühüm basiz üzərində inkişaf etdirilir, formalaşdırılır. Hərbi hissələrdə bu proses davamlı xarakter daşıyır, azərbaycançılığa istinadən hərbi xidmət dövrünü tam əhatə edir. Azərbaycançılıq nədir? - əsgər azərbaycançılığın nə olduğunu bilməsə, onun düşüncələrini, dünyadərkini, vətənpərvərlik duyğularını, duyumunu arzulanan səviyyədə formalaşdırmaq çətin olar.

Əsgər Vətəni sevməlidir, sevir. Akademik Xudu Məmmədov deyirdi ki, uşaqlara (bu anlamda gənc əsgərlərə) Vətəni sevməyi öyrətmək lazım deyil. Siz onlara Vətəni tanıdın, özləri sevəcəklər. Gənc əsgər hərbi xidmətə başlayana kimi Vətəni sevib, Hərbi And içib, bu sevgi Vətənin məhdud səviyyədə də olsa hüdudlarını bilir. Bu, tanımaq üçün azdır, Vətəni əsgərə azərbaycançılıq tanıdır.

Azərbaycançılıq Azərbaycan dilini sevməkdir, hərbi hissələrdə aparılan tədbirlərdə bu dilin imkanları hüdudunda təqdim edilən mətləblər, xalqımızın yaratdığı və bu günəcən qoruduğu möcüzə musiqilər, incəsənət əsərləri və s. əsgərlərin estetik baxışlarını durulaşdırır, zənginləşdirir.

Azərbaycançılıq ideologiyasına əsaslanan formalaşma prosesi dünya mədəniyyətinə, incəsənətinə inteqrasiya edir. Əsgər bilir ki, zamanında yaradılan adətlər, ənənələr xalqın mirasıdır. Mirası qorumaq azərbaycançılığın başlıca şərtlərindəndir. 1300 ildən də çox əvvəl Dədə Qorqud demişdi ki, "Torpağı qorumadınsa, onu əkib-becərməyə dəyməz". Azərbaycan əsgəri torpağı qoruyur, torpaqlarımız becərilir. Yəni, Dədə Qorqudun nəsihəti azərbaycançılığa sədaqətlə yerinə yetirilməkdədir...

İkinci Qarabağ müharibəsinin döyüşləri Azərbaycan əsgərinin Vətənə xidmətinin, azərbaycançılığa sədaqətinin döyüşləri idi. Bu müharibə xalqın müharibəsi idi, xalqın bütün milli-mənəvi dəyərləri döyüşlərə səfərbər olunmuşdu. Döyüşənlər döyüşlərdəydi, digərləri ruhən döyüşlərdəydi. Bu da azərbaycançılığa sədaqət idi. Hərbi qulluqçular da, mülki vətəndaşlar da azərbaycançılığı müharibə dövrünün tələbləri səviyyəsində yaşatdılar...

Azərbaycançılıq böyüklərə hörməti vacib sayır. Bu müddəa Hərbi Nizamnamədə də təsbit edilib. Yəni, ordumuzun Hərbi Nizamnamələri də azərbaycançılığın ifadə edildiyi rəsmi sənədlərdəndir. Zamanında məktəbli olan əsgər böyüklərə (həm yaşda, həm vəzifədə, həm də rütbədə) hörmətlə yanaşır, böyükləri dinləməyi də bacarır, onların məsləhətlərini, tövsiyələrini, tələblərini yerinə yetirməyi də. Azərbaycançılıq hərbi xidmətdə vəzifə borclarının da məsuliyyətlə yerinə yetirməyi tələb edir, Vətən naminə istənilən tapşırıqları da...

Haradasa oxuduğum bir hadisəni xatırlayıram:

Vətən müharibəsi başlayanda Samir müəllim böyük israrla döyüşə getmişdi. Kəşfiyyat taqımında xidmət edirdi. Füzuli istiqamətində növbəti hücum ərəfəsində hərbi hissəyə gələn döyüşçüləri görəndə çaşqınlıqla səsləndi: "Bəhruz!". Bəhruz müəllimini tanıdı. Həsrətlilər kimi qucaqlaşdılar.

- Sizinlə burada, döyüşdə görüşəcəyimə inana bilmirəm, müəllim, - Bəhruzun gözlərində gözəl bir sevinc çiçəkləmişdi.

- Razılaşmışdıq ki, birlikdə döyüşəcəyik, - Samir müəllim şagirdinin avtomatının qundağından yapışdı. - Barmağın tətikdə titrəməsin...

O gün müəllimlə şagirdin döyüş yoldaşı olması hərbi hissədə hamını duyğulandırmışdı... Kəşfiyyata gedirdilər. Samir müəllim və beş döyüşçü. Bəhruz da döyüşçülərin sırasındaydı. Düşmənin mövqelərinə yaxınlaşmışdılar. Samir müəllimlə Tahir beş-altı addım qabaqdaydı, o biriləri iki-iki arxada, sağda və solda. Qarşı yaxanı müşahidə etmişdilər. Düşmənlər döyüş texnikalarına texniki xidmət göstərirdilər. Döyüşçülərin vurnuxmasından hiss olunurdu ki, tapşırıq üçün vaxt azlığı var...

Qayıtmağa hazırlaşırdılar. İki-üç addım atmışdılar ki, atəşə tutuldular. Samir müəllimlə Səfər himayə atışı aparırdı, digərləri atışa-atışa uzaqlaşırdılar. Düşmənin atışı getdikcə sıxlaşırdı. Samir müəllimin əmri ilə Tahir məlumatları çatdırmaq üçün döyüşün içindən sıyrılıb uzaqlaşmışdı... Bəhruz yaralanmışdı. Samir müəllim onu bir tərəfə çıxartmaq istəyirdi. Dikələ bilmirdi. O biri döyüşçülər atışa-atışa geri çəkilməkdəydilər. Samir müəllimin Bəhruzu döyüşün içindən çıxarda bilmədiyindən xəbərsiz idilər...

Köməyə gələnlər gördüklərindən heyrətləndilər: Samir müəllimin sağ qolu Bəhruzun başının altındaydı, Bəhruzun sol qolu Samir müəllimin kürəyində. İkisi də şəhid olmuşdu...

Hərbi xidmət hər əsgərə hərbi biliklər verir, bu biliklər təlimlərlə möhkəmləndirilir, əsgərin döyüş hazırlığı mənəvi-psixoloji hazırlığı sırada yüksəlir. Azərbaycan Ordusunda insan (əsgər) amili həmişə yüksək mənəvi ehtiramlar səviyyəsində dayanıb.

Azərbaycançılıq məfkurədir, məfkurə - xalqın tarixinə düşən işıqdır, mədəniyyətdir, ədəbiyyatdır, incəsənətdir. Azərbaycan Ordusu yarandığı gündən məfkurə ilə əhatələnib, məfkurənin əsgəri olub, torpağı qoruya-qoruya azərbaycançılığı qoruyub, azərbaycançılığı qoruya-qoruya məfkurəni qoruyub. Azıx mağarasını, Gəmiqayanı, Damcılını, Qobustanı, ... tanımayan düşüncələri ədəbiyyatımızdan (Dədə Qorquddan, bayatılarımızdan, nağıllarımızdan, folklorumuzdan bəhrələnməyən) Nizami, Füzuli, Nəsimi hikmətinə bələd olmayan azərbaycançılığın mahiyyətini dərk edə bilərmi? Dərk edə bilməzsə, onu necə yaşada bilər? Hərbi hissələrdə əsgərlərlə aparılan ideoloji iş bunları da əhatə etdiyinə görə əsgərlər azərbaycançılığın mahiyyətini həm dərk edir, həm də hərbi xidmət dövründə düşüncələri bu dərklə formalaşır.

Azərbaycançılığı dərk etməyən əsgər güclü əsgər ola bilməz.

Milli-mənəvi dəyərlər kamil bir sistemdir. Azərbaycançılıq bu sistemin başlıca mahiyyəti. Azərbaycançılığa görə, dostluq müqəddəs duyğudur. Azərbaycan Ordusunda bu duyğu hərbçi məsuliyyəti ilə, Vətənə sevgi səviyyəsində mənəvi dəyər kimi yaşadılır.

Xalqın müharibəsi kimi tarixləşən İkinci Qarabağ müharibəsində xalqın milli mentaliteti də müsəlləh əsgər idi. Ordu döyüşürdü, Vətənə sevgi döyüşürdü, milli mentalitet döyüşürdü, azərbaycançılıq döyüşürdü. Dostluq xalqın düşüncə sistemində qoruna-qoruna yaşadılan, yaşadıla-yaşadıla müqəddəsləşdirilən bir duyğudur. İkinci Qarabağ müharibəsində əsgər (döyüşçü) dostluğu döyüşlərin, döyüşlərdə qələbənin şərtlərindən biri olmuşdu:

İki əsgər vardı - Ziyəddin, Kəramət. Hərbi xidmətə eyni gündə gəlmişdilər. İlk "salaməleyk"dən bu yana bir yerdəydilər. Eyni taqımda xidmət edirdilər, çarpayıları yan-yanaydı. İkisi də torpaq mehirliydi. İkisi də dürüst dost idi. Yuxuları dolaşıq düşəndə pıçıltıyla Başlıbel faciəsindən, Qaradağlı faciəsindən, Meşəli, Ağdaban, Xocalı faciələrindən danışırdılar. İşğalı sona çatdırmaq üçün, şəri biryolluq yox etmək üçün onlar da müharibə arzulayırdılar...

Müharibədə bu iki dost Füzuli istiqamətində döyüşürdü. Komandirləri onlara və daha iki döyüşçüyə döyüşlə sol tərəfdən düşmənin diqqətini yayındırmaq əmri vermişdi. Həmin tərəfdə döyüşürdülər...

Kəramətin avtomatı susmuşdu. Ziyəddin ona sarı süründü. Sürünə-sürünə onu səslədi. Kəramətin səsi gəlmədimi, Kəramət onu eşidə bilmədimi, hər nəyiydisə, Ziyəddinin qəlbini gümanlar didişdirirdi. Bir də səslədi. Güllə səsləri içində səssizlikdən ürəyi sıxıldı. Güllələr papağını sıyırdı. Dizi üstə sürünə-sürünə dostuna yetişmək, onun hayına çatmaq istədi...

Dostunun gəlişini duyan Kəramət azca dikəldi. Elə bil gözlərinin işığı artdı. Dar macalda həzin-həzin əsən meh ümidinin köynəyinə döndü, köynəyinin məlhəminə. Dirsəklənmək istədi. Ağrılar imkan vermədi. Canını dişinə sıxıb döyüşlər gedən tərəfə baxdı. Sonra Ziyəddinə tərəf. Gözləri torlaşmışdı...

Ziyəddinin son nəfəsi Kəramətin son nəfəsini bürüdü. İkisi də şəhid olmuşdu…

Əsgər dostluğunu azərbaycançılıq yaratmışdı, Vətən naminə döyüşmüşdülər, azərbaycançılığa sədaqətlə döyüşmüşdülər, döyüşçü dostluğunun cazibəsində şəhid oldular…

Azərbaycançılıq ideologiyadır, məfkurədir, İkinci Qarabağ müharibəsində qazanılan tarixi Zəfər ordu quruculuğunda yeni mərhələ yaratdı. Bu mərhələdə də şəxsi heyətin mənəvi-psixoloji hazırlığı azərbaycançılıq ideologiyası əsasında aparılır. Bu ideologiya Azərbaycan Ordusunun şəxsi heyətinin dünyaduyumunun fəlsəfi mahiyyətini ifadə edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İkinci Qarabağ müharibəsində qazanılan tarixi Zəfərdən sonra ordunun yaranması gününə həsr edilmiş təntənədə dedi: "İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Bu tarix Azərbaycan xalqının ürəyində əbədi yaşayacaq. Bu, ədalətin təntənəsi idi. Bu, qürurun təntənəsi idi, milli ləyaqətin təntənəsi idi, Azərbaycan xalqının əyilməz ruhunun təntənəsi idi". Bu təntənə azərbaycançılıqdan qaynaqlanan təntənə kimi - ordumuzun şəxsi heyətinin mənəvi-psixoloji hazırlığında tarixin yaratdığı elmi-mənəvi tezis kimi həmişə ordu quruculuğunun subyekti olacaqdır...

**Polkovnik-leytenant**
**Rəşad ƏLİYEV**
**"N" hərbi hissəsi**

*Maraq dünyamız*

# Heyrətamiz Velviçiya



Heyrətamiz Velviçiya (Welwitschia mirabilis) Anqolanın Cənub-Qərbində və Namib Səhrasında, Atlantik okeanı sahili boyunca bitən uzunömürlü relikt və endemik bitkidir.

Uzunömürlü sayılan bitki (ömrü 1500 il və ya daha çox ola bilər) ömrü boyu yalnız iki yarpağı olan cırtdan ağacdır. Boyu 50 sm, kökü isə 3 metr dərinlikdədir. Çöl ekosistemində Velviçiya bir çox heyvanı su, qida və sığınacaq ilə təmin edən mühüm rola malikdir. Bu növ Namibiya səlahiyyətli orqanlar tərəfindən qorunur və ticarəti qadağandır. Bununla yanaşı, tədqiqatçılar hazırda temperatur dəyişikliyinin nəticəsi olaraq heyrətamiz Velviçiyanın potensial risk altında olduğunu irəli sürürlər.

Canlı, faydalı qazıntı sayılan bu bitki okean sahilindən yüz kilometr məsafədə nadir hallarda tapılır, çünki Velviçiya üçün əsas nəm mənbəyi - dumandır. Yarpaqların səthində cəmlənmiş su damcıları, təxminən 22 min stomatlar vasitəsilə sovrulduğundan Velviçiya uzunömürlüdür.

Bitki ilk dəfə 1860-cı ildə adını aldığı Avstriya botaniki Fredrix Velviç tərəfindən aşkar edilib. Yerli Buşmen qəbiləsi isə bitkini "böyük hökmdar" adlandırır.

Bitkinin ölçüsü heyrətamizdir. Kökü 3 metrə qədər böyüyə bilir. Konusşəkilli gövdə isə çox qısadır və yer səthindən 25-30 santimetrdən yuxarı qalxmır. Gövdənin diametri 1 metrə qədər ola bilir. Çox hissəsi yerin altındadır. Velviçiya həm də bənzərsiz yarpaqları ilə məşhurdur. Başlanğıcda toxumdan yalnız 2 həqiqi yarpaq böyüyür. Daha sonra toxum itdikdən sonra yarpaqlar bitkinin həyatı boyu böyüməyə davam edir. Onların uzunluğu 2-4 metrə çatır. Ancaq yarpaqların uzunluğu 1,8 metr, eni isə 6,2 metr olan bitkinin nəhəng nümunəsi də qeydə alınıb. Yarpaqlar sürətlə - ildə 8-15 santimetr arasında böyüyür. Yarpaqların ucları zamanla quruyur və külək vasitəsilə kiçik zolaqlara bölünür. Bitki dünyasında Velviçiyanın yarpaqları ən davamlı və dözümlü yarpaqlar hesab olunur.

Bitkinin dişisi və erkəyi var. Bitkinin toxumu küləklə yayılır.

Dünyada bitki sayca az olduğu üçün Namibiyanın Qoruma Qanunu ilə qorunur.

Hazırda Kanadanın Milli Tədqiqat Şurasının əməkdaşları, Pyerluici Bombinin rəhbərlik etdiyi elm adamları iqlim dəyişikliyinin Şimal Namib Səhrasında Velviçiya bitkisinə olan təsirini araşdırdılar. 2019-cu ilin mayında tədqiqatçılar səhrada ekspedisiya zamanı təxminən 215 $km^2$ ərazidə





Velviçiyanın sayını təyin ediblər, bitkilərin sağlamlıq və reproduktiv vəziyyəti, ölçüləri haqqında ətraflı məlumat toplayıblar.

Tapılan 1330 bitkinin yarısının vəziyyəti "orta", 32%-i "pis", yalnız 10%-i "yaxşı" qiymətləndirilib və 7%-i ölü tapılıb.

Alimlər qeyd edirlər ki, bölgədəki mövcud iqlim dəyişikliyi davam edərsə, havanın temperaturu ortalama 1,5-2,5 selsi dərəcə artacaq və bu da yaxın onilliklərdə bitkinin tamamilə yox olmaq təhlükəsi ilə üzləşməsi deməkdir.

Heyrətamiz Velviçiya qapalı və ya istixana bitkisi kimi də yetişdirilir, lakin onu yetişdirmək heç də asan deyil.

**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar


Star

139 yıllık hayal gerçek oluyor: Türkiye'den AB ve ABD'yi tedirgin eden proje

### Türkiyədə ilk yerli atom sualtı qayığının inşası müzakirə olunur

Türkiyədə ilk yerli nüvə enerjisi qurğusuna malik sualtı qayığın (NÜKDEN) yaradılması proqramı nəzərdən keçirilir. Bu layihə ölkənin Hərbi Dəniz Qüvvələrinin idxaldan asılılığını tamamilə aradan qaldıracaq.

Bu barədə bazar günü Türkiyənin "STAR" qəzeti məlumat yayıb.

Nəşr xatırladır ki, daha əvvəl Türkiyə Hərbi Dəniz Qüvvələrinin komandanı Ərcümən Tatlıoğlu, ardınca isə sualtı donanmanın komandanı Timur Yılmaz yaxın zamanda atom sualtı qayığının yaradılmasının əhəmiyyətinə diqqət çəkiblər.

"Yeni növ sualtı qayıqlar xüsusilə Şərqi Aralıq dənizində Türkiyə Silahlı Qüvvələrinin gücünü artıracaq. Atom sualtı qayığı "Anadolu" çoxməqsədli desant gəmisinin rəhbərlik etdiyi dəniz qrupunun əsas tərkib hissəsi olacaq. Bu layihə Türkiyə üçün artıq zəruri bir ehtiyacdır", - deyə qəzet T.Yılmazın sözlərindən sitat gətirir.

Qeyd olunur ki, hazırda atom sualtı qayıqları yalnız bir neçə ölkənin - ABŞ, Rusiya, Çin, Fransa, Böyük Britaniya və Hindistanın silahlı qüvvələrinin arsenalında mövcuddur.

"Türkiyə tərəfindən belə bir sualtı qayığın yaradılması həm regionda, həm də dünyada qüvvələr balansına təsir göstərəcək", - deyə STAR qəzeti yazır və əlavə edir ki, layihənin həyata keçirilməsinə fəal hazırlıq davam edir.

### İranda polad kompleksində partlayış baş verib: 1 nəfər həlak olub, 7 nəfər yaralanıb



İranın Natanz şəhəri ətrafında polad kompleksində qaz çəninin partlaması 7 nəfərin yaralanması və bir nəfərin ölümü ilə nəticələnib.

Bu barədə IRNA agentliyi məlumat yayıb. Məlumata görə, həlak olan Əfqanıstan vətəndaşıdır. Yaralılar Bədruddakı Fatimeh xəstəxanasına aparılıb.

### Tramp administrasiyası Los-Ancelesə göndərilən Milli Qvardiya əsgərlərinin sayını ikiqat artırıb



ABŞ administrasiyası Los-Ancelesə göndərilən Milli Qvardiya əsgərlərinin sayını ikiqat artırıb.

Bu barədə Pentaqonun sözçüsü Şon Parnel məlumat yayıb. Qeyd olunub ki, miqrantların aksiyası ilə bağlı göndərilən Milli Qvardiya əsgərlərinin sayı 4100 olub.

Sözçü bildirib ki, qoşunlar İmmiqrasiya və Gömrük Xidmətini dəstəkləmək və federal hüquq-mühafizə orqanlarına öz vəzifələrini təhlükəsiz şəkildə yerinə yetirməsinə kömək etmək üçün orada olacaq.

Əmr yerli vaxtla bazar ertəsi axşam (Bakı vaxtı ilə çərşənbə günü erkən saatlarda) verildiyi üçün əlavə qoşunların gəlməsi bir və ya iki gün çəkə bilər.

**AZƏRTAC-ın materialları əsasında**

# İdman



### Çövkən üzrə Azərbaycan millisi ilk dəfə Avropa çempionu olub

Beynəlxalq Çövkən Federasiyasının təşkilatçılığı ilə iyunun 5-7-də Polşada keçirilən çövkən üzrə Avropa çempionatının final qarşılaşması keçirilib.

Tarixi nəticə ilə yadda qalan yarışmada Azərbaycan milli komandası ilk dəfə Avropa çempionu olub.

Final oyununda Azərbaycan yığması Malta komandası ilə qarşılaşıb və 6:2 hesabı ilə inamlı qələbə qazanıb. Bu nəticə ilə komandamız turnirin kubokuna sahib çıxıb və çövkən tarixində yeni bir səhifə açıb.

İyunun 5-də start götürən turnirdə 6 ölkə - Azərbaycan, Türkiyə, Macarıstan, Malta, Polşa və Böyük Britaniya iştirak edib.

Püşkatma nəticəsində Azərbaycan milli komandasının ilk oyunu Türkiyə yığması ilə olub və komandamız bu görüşdən 3:0 hesablı qələbə ilə ayrılıb.

Yarımfinal mərhələsində isə milli komandamız Macarıstan yığmasına qarşı mübarizədə üstünlüyünü davam etdirərək 4:0 hesablı qələbə qazanıb.

Beynəlxalq çövkən təqviminə əsasən, növbəti kontinental mötəbər yarışlar sentyabrın əvvəlində Özbəkistanda Asiya, sentyabrın sonunda Nigeriyada Afrika və noyabr ayında isə Buenos-Ayresdə Cənubi Amerika çempionatları keçiriləcək.

### Azərbaycan boksçuları Gürcüstanda 3 qızıl, 2 gümüş və 2 bürünc medal qazanıblar



Gürcüstanın Poti şəhərində gənc boksçular arasında keçirilən beynəlxalq turnir başa çatıb.

Azərbaycan millisi yarışı 7 medalla başa vurub.

Komandamızın heyətində Bilalhəbaşi Nəzərov (50 kiloqram), Zidan Hümbətov (55 kiloqram) və Məhəmməd Cəfərov (+90 kiloqram) bütün rəqiblərinə qalib gələrək, birinci yeri qazanıblar. Yalnız finalda məğlub olan Sübhan Babayevlə (57 kiloqram) Hüseyn Hüseynli (90 kiloqram) gümüş medala yiyələniblər. Nihat Qasımov (50 kiloqram) və Rza Rzayev (75 kiloqram) isə turniri bürünc mükafatla başa vurublar.

### Azərbaycan badmintonçuları beynəlxalq turnirdə 3 qızıl medal qazanıblar



Azərbaycanın yeniyetmə badmintonçuları Venesuelada keçirilən beynəlxalq turnirdə 3 kateqoriya üzrə qızıl medal qazanıblar.

Oğlanların şəxsi yarışında mübarizəyə 1/8 finaldan başlayan Ülvi Hüseynov bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Eyni kateqoriya üzrə qızların şəxsi yarışında Leyla Camalzadə də turnirin qalibi olub.

Yeniyetmə badmintonçular daha bir qızıl medalı qarışıq qoşa kateqoriyasında əldə edib. Ülvi Hüseynov - Leyla Camalzadə tandemi müvafiq kateqoriya üzrə yarışı ilk sırada başa vurub.

**AZƏRTAC-ın materialları əsasında**

Mürsəliyev Sənan Samir oğluna verilmiş MV № 124430 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Nurəliyev Namiq Rasim oğluna verilmiş MV № 114292 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Redaktor**
mayor Ceyhun CƏFƏRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
Lalə HÜSEYNOVA

Lisenziya № 361
Sifariş № 263
Nüsxə 3630